# "Şeyx Səfi təzkirəsi"ndə həqiqət və rəvayətlər

**Xuraman Hümmətova**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: hummatovax@mail.ru

**Annotasiya.** Mücərrəd bir anlayış olan təsəvvüf, təriqətlər vasitəsi ilə konkret məzmun və forma kəsb etmişdir. Təriqətlər XII əsrdən başlayaraq sistem halına gəlmiş, müəyyən proqram və struktura malik olmuşdur. Bu sistemli fəaliyyət onları bir-birindən fərqləndirmiş, onlar arasında qarşılıqlı əlaqələr yaratmışdır. Bu cəhətdən mütəsəvvüf olmaq, yaxud təsəvvüf şairi olmaq müəyyən təriqətlə bu və ya digər şəkildə bağlı olmaq demək idi. Çünki təriqətsiz təsəvvüf yoxdur. Belə təriqətlərdən biri də Bayramiyyə təriqəti olmuşdur. Bayramiyyə təriqətinin təməl özəlliklərinin formalaşmasında iki təriqətin özünəməxsus rolu olub. Bu təriqətlərdən biri Şeyx Səfi Ərdəbili tərəfindən əsası qoyulan Səfəviyyə, digəri isə İbrahim Zahid Gilani tərəfindən əsası qoyulan Xəlvətiyyə təriqəti olmuşdur.
Səfəviyyə təriqətinin qurucusu və yaradıcısı Şeyx Səfiyyəddin Ərdəbilinin mürşidi Şeyx İbrahim Zahid Gilani, onun həyatı və fəaliyyəti, müridinin onun səviyyəsinə çatması haqqında məlumatların müasir oxuculara çatdırılmasında XIV əsr müəllifi İbn Bəzzaz Ərdəbilinin fars dilində yazdığı "Səfvətüs-səfa" kitabının böyük rolu vardır. Məhəmməd Hüseyn Katib Nişati 1543-cü ildə bu əsəri türkcəyə çevirərək, şərti olaraq "Şeyx Səfi təzkirəsi" adlandırmışdır. Məqalədə "Şeyx Səfi təzkirəsi" İbrahim Zahid Gilani və Şeyx Səfiyyəddin ilə bağlı kiçik hekayətlər formasında yer alan məlumatlardan bəhs olunur.
**Açar sözlər:** İbrahim Zahid Gilani, Şeyx Səfiyyəddin Ərdəbili, Səfəviyyə təriqəti, "Şeyx Səfi təzkirəsi", təriqətlər, rəvayətlər

**Məqalə tarixçəsi:** göndərilib – 11.11.2022; qəbul edilib – 22.11.2022

# The truths and narratives in "Sheykh Safi tazkira"

**Khuraman Hummatova**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: hummatovax@mail.ru

**Abstract.** Tasavvuf as an abstract notion possessed a concrete content and form through sects. Starting from the XII century the sects shaped a systemic form and owned certain structure and program. These systemic activities differed the sects from each other as well as created mutual relations among them. Therefore, being a poet of mutasavvuf meant being linked with a sect, as there is no tasavvuf without a sect. One of these sects was Bayramiyye. Two sects had great role in foundation of Bayramiyye. Safaviyye is one of them which was founded by Sheykh Sefi Ardabili and the other one is Khalvatiyye that was founded by Ibrahim Zahid Gilani.
The author of XIV century Mohammad Ibn Bezzaz Ardabil's book of "Safvatus-safa" in Persian is the resource delivering information on the life and creativity of founder of the Safaviyye sect Sheykh Safiyyeddin Ardabili. The author of the book was a student of the founder of the sect. Mohammad Huseyin Katib Nishati translated the book into Turkish in 1543 and named it "Sheyk Safi's tezkire". There will be fragments of short stories that are related with "Sheykh Safi's tezkire", Ibrahim Zahid Gilani and Sheykh Safiyyedin.
**Keywords:** Ibrahim Zahid Gilani, Sheykh Sefiyyeddin Erdebili, Safaviyye sect, "Sheykh Sefi tezkire" truth, legends

**Article history:** received – 11.11.2022; accepted – 22.11.2022

## Giriş / *Introduction*

Təsəvvüf poeziyasının yaranmasında və formalaşmasında Xorasan və Ərdəbil ədəbi mühiti böyük rol oynamışdır. Əvvəllər şeyx söhbətləri, mürşid məsləhətləri, ulu nəsihətləri adı altında fəaliyyət göstərən qruplar, sonradan təriqət adı altında formalaşmağa başladı. Təriqətlər XII əsrdən başlayaraq sistem halına gəlmiş, müəyyən proqram və struktura malik olmuşdur. Bu sistemli fəaliyyət onları uzunömürlü etməklə yanaşı, təriqətləri bir-birindən fərqləndirmiş, onlar arasında qarşılıqlı əlaqələrin yaranmasında böyük rola malik olmuşdur. Göründüyü kimi, mücərrəd bir anlayış olan təsəvvüf təriqətlər vasitəsi ilə konkret məzmun və forma kəsb etmişdir. Bu cəhətdən mütəsəvvüf olmaq, yaxud təsəvvüf şairi olmaq və ya öz yaradıcılığında təsəvvüfi ideyanı tərənnüm etmək, bütün hallarda müəyyən təriqətlə bu və ya digər şəkildə bağlı olmaq demək idi. Çünki təriqətsiz təsəvvüf yoxdur. Təriqət təsəvvüfün gerçəkləşməsinin məkan və zamanıdır. Bu cəhətdən təriqətlər hər hansı şəkildə bir-birilərindən fərqlənirdilər. Təriqət ümumi mənası ilə "yol" deməkdir. Ərəbcə bu söz "tarik" sözündən əmələ gəlmiş, daha geniş mənada "metod, hal, cizgi, məzəb" və s. mənalarını da bildirir.

## Əsas hissə / *Main Part*

Təsəvvüfi mənada işlədilən "təriqət" termini ilə daha çox dini mənada işlədilən "məzhəb" sözünün leksik mənaları "yol" mənasındadır, amma onlar da bir-birindən fərqli fəaliyyət növləridir. A.Gölpınarlı göstərir ki, təriqət – qulu Tanrıya çatdıran, zövq, nəşə, irfan, eşq və cəzbə yoludur. Sufilərə görə, bu yolu tutan insan öz varlığını Tanrıya verən irfan yolçusudur [1, s.186]. Təriqətlərin sayına gəlincə, bu, nisbi anlayışdır. Elə təriqətlər vardır ki, onlar həqiqətən müstəqil olmuş və sayılıb-seçilmişlər. Elələri də olmuşdur ki, onlar özlərini müstəqil saysalar da, əslində, müstəqil təriqətlərin qolları sayılmışlar. A.Gölpınarlı yazır ki, sufilər arasında "əsl təriqətlər on ikidir" deyimi işlənir, ancaq nə vaxt və kimin tərəfindən söyləndiyi bilinməyən, mənasının on iki imamla bağlı olması şübhə doğurmayan bu deyimə qarşılıq olaraq "Allaha aparan yollar insanın aldığı nəfəsin sayı qədərdir" deyimi də vardır. Bizcə, təriqətlər və təriqət şöbələrinin sayı baxımından bu söz daha doğrudur. "On iki təriqəti qəbul edənlərə görə təməl təriqətlər bunlardır: qədiri, rifani, bədəvi, desuki, sədi, şazili, xəlvəti, mövləvi, bəktaşi, bayrami, cəlvəti, nəqşbəndi. Lakin bunlardan bayramilik xəlvətilikdən ayrılmazdır. Xəlvəti də bayramiliyin bir qoludur" [1, s.188].

Ümumiyyətlə, ilk mütəsəvvüflər düşüncə və təcrübələrini ətraflarında toplanan insanlara öyrətməklə yanaşı, bugünkü mənada anladığımız təriqətləri qurmamışdılar. Özlərinə şeyx, söhbət şeyxi və ustad, ətraflarına toplananlara da sahib deyilirdi. Bir təsəvvüf məktəbi sayıla bilən bu qruplar daha sonralar təriqət olaraq adlandırıldı.

X əsrdən etibarən Xorasandan başlanan sufi axınları geniş çevrədə yayılmağa başlamışdır. Belə ki, türklərin məskunlaşdığı bölgələrdə bu axınlar daha möhkəm qərarlaşdı. "Bu şeyxlər də şamanlar kimi, mənzum ilahilər oxuyur, buddist rahibləri kimi mənqəbələr (dini rəvayətlər – X.H.) söyləyən insanlardır" [2, s.13-14].

Bayramiyyə təriqətinin təməl özəlliklərinin formalaşmasında iki təriqətin özünəməxsus rolu olub. Bu təriqətlərdən biri əsası Şeyx Səfi Ərdəbili tərəfindən qoyulan Səfəviyyə, digəri isə İbrahim Zahid Gilaninin mənsub olduğu Xəlvətiyyə təriqəti olmuşdur.

Bilirik ki, Şeyx Səfiəddin təriqət əhli idi. Şeyx Səfiəddinin "Qara məcmuə"sində nəzmlə yazılan hissələrdən başqa, nəsrlə yazılmış irfani məqamları özündə əks etdirən hekayətlər də var. İbrətamiz mahiyyət daşıyan bu əhvalatların hər biri insanın oxuyub ondan ibrət götürməsinə xidmət göstərən həyat hekayətləridir.

"Şeyx Səfi təzkirəsi" klassik Azərbaycan tərcümə sənətinin ən dəyərli abidələrindən biridir. Onun haqqında yazılan təzkirə isə tərcümə sənətinin qədimliyindən soraq verir. Təzkirə fars dilində

yazılsa da, oradakı bütün şeirlər ana dilindədir. Bu da XIII əsr anadilli poeziyamızın yüksək inkişaf etdiyini və onun şeir dili səviyyəsinin inkişafını göstərən meyar olmasını göstərir.

Tərcümənin orijinalı XIV əsr müəllifi İbn Bəzzaz Ərdəbilinin fars dilində yazdığı "Səfvətüs-səfa" kitabıdır. Məhəmməd Hüseyn Katib Nişati 1543-cü ildə bu əsəri türkcəyə çevirərək şərti olaraq əsəri "Şeyx Səfi təzkirəsi" adlandırmışdır. Orta əsrə aid tərcümə örnəkləri üzərindəki müşahidələr göstərir ki, o dövrün mütərcimləri bir sıra hallarda özlərini "müsənnif" (müəllif), "nazim" (şair) adlandırmış, hətta çevirdikləri əsərin adını, müəllifini qeyd etməyi lazım bilməmiş və tərcümələrinə müstəqil ad vermişlər. Bütün bunlar, təbii ki, klassik tərcümə ənənələrinə xas olan səciyyəvi cəhətlərlə bağlıdır. Kitabda XIII-XIV əsrdə Azərbaycanda baş verən siyasi hadisələrlə yanaşı, dövrün təsəvvüf əhlinin dünyagörüşü də yer almaqdadır.

"Şeyx Səfi təzkirəsi"ndə yer alan və onun oğlu Sədrəddin tərəfindən atasının dili ilə söylənilən bəzi əhvalatlar; Şeyx Səfinin Şeyx Zahid Gilani ilə tanışlığı, illər uzunu ona mürid olması haqqında maraqlı məlumatlar qeyd olunur. Şeyx Səfi haqqında məlumatların yer aldığı bu tərcümənin beş əlyazma nüsxəsi məlumdur. Təzkirədə Şeyx Şəfi Ərdəbilinin müəllimi haqqındakı bəzi məlumatlar və əsərin təsir gücünü artırmaq məqsədilə onun üzünü köçürən Nişati, yeri gəldikcə, özünün beytlərini danışdığı əhvalatlara uyğun olaraq oraya artırıb. Onu da qeyd edək ki, "Səfvətüs-səfa"nın müəllifi İbn Bəzzaz Ərdəbili uşaq vaxtında Şeyx Səfi Ərdəbilini görmüş və bu əsəri də Şeyx Səfiədinin oğlu Şeyx Sədrəddinin tövsiyəsi ilə qələmə alıb, 759/ 1357-ci ildə tamamlamışdı. Tərcümə ənənəyə uyğun olaraq bablara, onlar da fəsillərə bölünür. Hekayələri andıran bu kiçik hissələr xatirə söhbətlər məzmunu daşıyır. Bunların bəziləri Şeyxin qohumları, dostları, həm oğlu, həm də xəlifəsi olan Sədrəddinin dilindən söylənilərək onun tövsiyəsi ilə qələmə alınmışdı.

Nişati tərəfindən üzü köçürülən bu təzkirədə Hacı Bayram Vəlinin şeyxi olan Hameddinin (Somuncu Baba adıyla tanınır) özünə mürşüd axtarmaq məqsədi ilə Ərdəbilə gəlməsi, orada Səfəviyyə təriqətinin qurucusu Şeyx Səfiəddin Ərdəbilinin böyük oğlu Sədrəddin Ərəbiliyə (ö. 794/1392) mürid olması haqqında da məlumatlar var. Şeyxi ilə aralarında ata-oğul münasibətləri yaranır, bu münasibət də çoxlarının xoşuna gəlməzdi. Odur ki, Hameddin həzrətləri Sədrəddin Ərdəbilidən irşad elminin bütün sirlərini öyrəndikdən sonra Türkiyəyə dönmüş və orada ətrafına müridlər toplamışdı.

Şeyx Səfiəddin Ərdəbili 1242-ci ildə Azərbaycanın ən qədim şəhərlərindən biri olan Ərdəbildə dünyaya göz açmışdır. Onun nəsil şəcərəsi yeddinci imam Musa əl-Kazimə gedib çıxır. Ulu babası Firuzşah Qızılbaş imam nəslindən olmuş və Ərdəbilə gələn ilk şeyxlərdən hesab olunur. "Mənbələrdə Firuzşahın oğlunun Əvəz, Əvəzin oğlunun Məhəmməd, Məhəmmədin oğlunun Səlahəddin, Səlahəddinin oğlunun Əminəddin, Əminəddinin oğlunun Səfiəddin olduğu qeyd edilir" [3, s.3]. Onun atası Əminəddin Cəbrayıl tanınmış ailənin övladı olmuş və o, öz dövrünün adlı-sanlı bir ailəsinin qızı ilə evlənmişdir. Köklü türk ailəsində doğulmuş Şeyx Səfiəddin Ərdəbili valideynlərinin altı övladından beşincisi olmuşdur. Çox kiçik yaşlarında atasını itirmiş Səfiəddin ilk təhsilini Ərdəbildə almışdır. Təzkirədə yer alan kiçik hekayətlərdən birində deyilir: "Şeyx Səfiəddin bir gecə yuxuda Ərdəbildəki caminin qülləsində olduğunu, Günəşin bütün aləmə işıq saldığını, hər tərəfin nura qərq olduğunu və özünün də o işığın ortasında olduğunu görür. Bu yuxunu səhər anasına danışır. Anası deyir: "Sən inşallah, bir ulu şeyx olacaqsan ki, aləmin xəlayiqi sənin tərbiyən ilə irşadın rövşən və aydın ola". Bu əhvalata uyğun olaraq Nişati deyir:

*Alnının şöləsi afaqi edər nurani,*
*Pərtövi-tərbiyətün feyz verür ruhani.*

Təzkirənin bir yerində yenə Sədrəddinin dilindən deyilir: "Həzrəti Şeyx bir gecə yuxusunda görür ki, əlində çubuqlar var. Onlar yerə düşür, həmən saat da onların dibi yerə bərk yapışır və başları göyərir. Bu yuxunu anasına nəql edir. Anası onun zürriyyatının və müridlərinin çox olacağını deyir" [4, s.56-57].

Qaynaqlara görə, gənc yaşlarından sufizmə meyilli olan Şeyx Səfiəddin dövrün ənənəsinə uyğun olaraq, özünə mürşid axtarışına çıxır. Doğma şəhəri Ərdəbildə özünə müvafiq mürşid tapa bilməyən gənc Səfiəddin bu məqsədlə Sührəvərdiyyə təriqət şeyxlərindən olan Şirazlı Nəcməddin Bozqu-

şun (vəfatı: 1279) sorağiyla Şiraz şəhərinə yollanır. Lakin o, hələ Şiraza çatmamış, Nəcməddin Bozquşun vəfat etməsi onun bu arzusunu ürəyində qoymuşdur. Şeyx sorağı ilə Şiraza gələn Şeyx Səfiəddin orada rəbbani bir alimin olduğunu, hamıya öyüd və nəsihət verdiyini eşidir. Onun hüzuruna yetişir və şeyxin söhbətlərinə qulaq asır. Bu, dövrünün tanınmış şeyxi Mövlana Rəziyyəddin idi. Sonra Şeyx Səfinin onun hüzurunda Quranı oxuması Rəziyyəddinin xoşuna gəlir. Bundan sonra Şeyx Səfi Şirazda yavaş-yavaş tanınmağa başlayır. Bu müddət ərzidə onun Şirazda tez-tez Sədi Şirazi ilə görüşdüyü qeyd edilir. Onun görüşündən məmnun qalan Sədi Şirazi Şeyx Səfini dünyanın şeyxi, övliyalar övliyası, ərənlər ərəni din rəhbəri kimi təsvir edir, hüzurunda söhbət etməsi haqqında da təzkirədə məlumatlar var. Təzkirənin başqa bir yerində oxuyuruq ki, Şeyx Səfiəddin Şirazda yenə tanınmış elm adamı və din əhli olan Əmir Abdullah adlı bir möminin hüzuruna gəlir. Bu əhvalatı Nişatı belə bir beytlə təsvir edir:

*Kuyindən canə yetərdi rövhi-ruh,*
*Zahir olurdı yüzündən yüz fütuh.* [4, s.71]

Şeyx Səfi Şiraza gəlməsinin səbəbini ona nəql edir. Şeyx Səfiyə diqqətlə qulaq asan Əmir Abdullah bir saata qədər başını aşağı salıb susur, sonra başını qaldıraraq deyir: "Ey Türk piri, bizim himmətimizin quşu burada heç uçmayıbdır. Əgər kəşf ilə qədəm istərsən, bu vilayət hasil olur, amma sənün istədügün məta bu bazarda ələ girməz və bu haldan biz bixəbərüz". Katib şeir dili ilə bunu belə ifadə edir.

*Açmayübdür himmətimiz quşi anda pərü bal,*
*Anda nə pərvaz edə bilür, nə xud bulur məcal.* [4, s.72]

Bunu eşidən Şeyx Səfi çox pərişan olur və deyir: "Qamu dustlar ilə övliyalar məni sana həvalə qıldılar ki, işim qulluğunda açılacaqdır. Səndən dəxi umudum hasil olmadı. İmdi mənüm tədbirüm nədür? Şeyx Abdulla Şeyx Səfinin iztirabını görüb dedi: "Ey Türk piri, aləmin şərqindən qərbinədəki kimsə kim sənün vaqiələrinin təbirini eyləyə, müşkil işlərini həll qıla, kimsə yoxdur, Şeyx İbrahim Zahid Gilanidən özgə hasil olmaz. Şeyx Zahidin yeri Gilandır, Ol Gilan ki, sənin vətəninə yaxındır." Şeyx Səfi Əmir Abdullahdan Şeyx Zahid Gilaninin əlamətlərini sordu: Əmir Abdullah dedi: "Ol bir kişidir, qısa boylu, qırmızı bənizli, sürməli gözlü, genişalınlı, incəyanaqlı. Sonra sözünə davam edərək deyir, ey Türk piri, sən ora varmaq gərəksən ki, məşriqdən məğribədək kimsə ki, bu mənidən xəbərdar ola, andan özgə yoxdur. Həzrəti Şeyxin ürəyi şövqə gələrək şeyxi görmək həvəsi ilə uçdu".

Şair bu anı belə təsvir edir:

*Çünki saldı aşiqi-şeyda bu sözlərgə qulaq,*
*Könlünün atı anın düz yolidə basdı ayaq.* [4, s.73]

Şirazdan ayrılmaq qərarına gələn Şeyx Səfi Sədi Şirazi ilə görüşmək qərarına gəlir. Sədi Şirazi öz əlləri ilə yazdığı şeir divanını ona təqdim edir və deyir: "Ey Türk piri, şən bunları qəbul eyləməzsən, mənim əşar divanim ki, öz xəttim ilə yazmışam, qəbul eylə ki, yolda yoldaşın olsun". Şeyx Səfi deyir: "Tanrının divanından könlüm o qədər doludur ki, özgənin divanı onda sığmaz və sənün divanın ilə Tanrıya yetmək olmaz". Sədi bu sözləri eşidib başını aşağı saldı. Şair bu anı belə nəzmə çəkir:

*Məndə var bir dəftərü divan, bu dəftər özgədən,*
*Kanda çox gizli rümuzu sirri-pünhan yazmışam.*
*Dəftərün dibaçəsində bağrınun qani ilən,*
*Qissələrnün şərhi birlə vəsfi-sultan yazmışam.* [4, s.73]

Şeyx sorağı ilə yoluna davam etmək məcburiyyətində olan Şeyx Səfi Şirazdan uzaqlaşmağa başlayır. Bir karvana qoşularaq Ərdəbilə anasının hüzuruna yetir, anasının gözü cəmalının vüsalı ilə

aydın və müşərrə qıldı. Onun Ərdəbilə gəlişi ilə Ərdəbilin şöhrətinin dünyaya yayıldığını, onun nurlu siması ilə Ərdəbilin nurlandığı qeyd edilir. "Ənisül-arifin" əsərində Şeyx Səfiyə aid olan bir şeir parçasında qeyd edilir ki, Şeyx Sədi Şeyx Səfini "camalından cism və can işıqlanan bir şəxs hesab edir və ondan "irfan çölünə girməkdə məqsədinin nə olduğunu bilmək istəyir" "Məna gölündə uçan o qızıl tərlan (Şeyx Səfiəddin) irfan yoluna girməyinin sirrini Şeyx Sədiyə anladaraq, bu dünyanı daha çox öyrənmək və dünyanı daha yaxşı dərk etmək arzusunda olduğunu bildirir və onun cavabı Şeyx Sədini heyran edir. Şiraz şəhərinin çox dindar abidləri ilə görüşüb söhbətləşən Şeyx Səfiəddin onların məsləhəti ilə mürşid olaraq, Şeyx Zahid Gilanini tapacağını qətiləşdirir. Doğma şəhəri Ərdəbilə qayıdan Səfiəddin yalnız dörd ildən sonra Şeyx Zahid Gilani ilə görüşə bilmiş və onun mürşidliyi altında dərviş həyatı yaşamağa başlamışdır [5, s.20].

Bir müddət Şirazda qalan Səfiəddin orada onu öyrətmək qüdrətində olan bilim insanının olmadığını Büzquşunun oğlu Zəhirəddin Büzquşu ona bildirir. Onun məsləhəti ilə Gilana Şeyx Zahid Gilaninin yanına yollanır. Katib bu anı belə təsvir edir:

*Hicrdə vəslün güni Novruz ya bayrammidür?*
*Dilbərün yüzin günəşmi, yoxsa cami-cəmmidür?* [4, s.74]

Bu minval ilə bir neçə gün gecəli-gündüzlü yol gedəsi olur. Nəhayət, bəzi mənbələrin verdiyi məlumata görə, dörd il, bəzilərinə görə isə altı il axtarışdan sonra Şeyx Zahid Gilani ilə rastlaşır.

Həzrəti Şeyx Sədrəddin buyurdu: "Ol çağda Şeyx Zahid Gilanda əshabı içində der ki, bir kəpənəkli igid Ərdəbildə bizim tələbimizdə sərgərdandır, amma həmən kim buraya gəlir, bir gündə işi tamam olur. Şeyx Zahid buyurdu ki, onunla Tanrı-təalanın ortasında bir hicab qalıbdır" [4, s.75].

*Aşiqi-sadiq sənün yolunda sərgərdandur,*
*Eşigündə gecə-gündüz bidilü bicandurur.* [4, s.75]

Bir müddətdən sonra Ramazan ayında Şeyx Zahid xəlvətə çəkilir, bayrama kimi heç kəslə danışmazdı. O, bir xidmətçini çağırıb zaviyənin içində od yandırıb, oranı isitməsini tapşırdı. O, zaviyənin bir küncündə namaz qılan o kəpənəkli igidi çağırmağı tapşırdı, onu xəlvətə gətirməyini xidmətçidən rica etdi. Həzrəti Şeyx Səfiəddin Şeyx Zahidin əl-ayağını öpməyə başladı. Onu Əmir Abdullahın dediyi nişanələrindən tanıdı. Bu hadisəni Nişati belə qələmə alır:

*Hər nə kim can güzgüsündə nəqş etmişdi könül,*
*Gördü cananın yüzündə qamusun zahir ol.* [4, s.76]

Şeyx Zahid ondan soruğur: Ərdəbilli, nə işə gəlmişsən? Həzrəti Şeyx Səfiəddin: "Gəlmişəm tövbə qılmağa". O, Şeyx Səfinin əlini əlinə aldı, tələbələrini yanına çağırıb "ol kəpənəkli igid ki neçə vaxtdır bundan sizə demişdim, Ərdəbildə dörd ildir ki, sərgərdən qalıb, budur. Haqq-təala ilə bu igidin arasında bir hicabdan artıq nəsnə yoxdur, budur, o hicab da dəxi aradan götürüldü. Şair deyir:

*Könül çün canə can dildarə yetdi*
*Aralıqdan ikilik cümlə itdi.* [4, s.79]

Bu minvalla iyirmi beş yaşından Şeyx Zahid Gilaniyə mürid olan Səfiəddin iyirmi beş il müddətində onun rəhbərliyi altında təriqətin mücahidə və riyazət mərhələlərindən uğurla keçmişdir. Öz qeyri-adi bacarığı, iti zəkası və güclü imanı ilə Şeyx Zahid Gilani və dərvişlərinin hörmət və məhəbbətini qazanan Səfiəddin təriqətin üsul və ədəbində yüksək mərhələyə qovuşduqdan sonra mürşidi tərəfindən insanları doğru yola yönəltmək üçün Marağa şəhərinə göndərilir və orada üzərinə düşən vəzifənin öhdəsindən uğurla gəlir. Məhz bu kimi məziyyətlərinə görə, Şeyx Zahid Gilani bəzi müridlərinin və hətta oğlu Cəmaləddinin də etirazlarına baxmayaraq, Səfiəddini özünə varis təyin edir [6, s.12; 137, 14].

Şeyx Səfiəddinin cavan yaşlarından Gilana gedərək dövrünün çox nüfuzlu sufi alimi şeyx Zahid Gilaninin müridi olduğu haqqında fikirlərimizi tarixi təzkirədən gətirdiyimiz nümunələrlə isbata yetirdik. Şeyx Zahid Gilaninin qızı Bibi Fatimə ilə ailə quran Şeyx Səfiəddin iyirmi beş ilə yaxın bir müddətdə Gilanda yaşamışdır. Bu illər ərzində Şeyx Səfi, təbii olaraq, yerli əhalinin dili olan giləkcəni öyrənmiş, çox yəqin ki, bəzi hallarda bu dildə müəyyən şeir nümunələri yazmışdır. "Silsilətün-nəsəbi-Səfəviyyə" müəllifi Həzrəti Zahid Gilaninin yazdığına görə, təkcə 3 ay ərzində Anadoludan Təbriz və Marağa yolu ilə 13 mindən çox mürid Şeyx Səfiəddini ziyarət etmişdir [7, s.38]. Demək olar ki, əksər mənbələrdə Şeyx Səfiəddinin istər Azərbaycan, istər də Kiçik Asiyadan başlayaraq Suriya, Hicaz, Bəsrəyədək yayılmış köçəri və oturaq türk topluluqlarına öndərlik etdiyi bildirilir [8, s.297].

Şeyx Zahid Gilaninin (1282-ci ildə vəfat edib) türbəsi Lənkəranın Şıxakəran kəndində ziyarətgah kimi qalır. Mən 2022-ci ilin may ayında o qəbri ziyarət etdim. Allah hamının ziyarətini qəbul etsin.

Seyyid Cəmaləddinin yetirməsi olan İbrahim Zahid Gilani Lənkəranın Siyavərud bölgəsində anadan olmuşdur. Dövrünün çox tanınmış bu şəxsiyyəti mömün bir insan, həmişə zöhd və təqva içərisində yaşadığı üçün zahid deyə ona müraciət olunurdu. O, Xəlvətilik və Səfəviyyəliyin yaradıcısı və atası hesab olunur. Səfəviyyə və Xəlvətilikdə baş mürşid hesab olunur. Hər iki təriqətdə Allahın yeddi adla (Əsmayi-səba zikr edilməsi) seyri-sülük prinsipini ilk dəfə o tətbiq etmişdir.

Şeyx Zahid Gilaninin vəfatından 6 il sonra doğma şəhəri Ərdəbilə qayıdan Şeyx Səfiəddin orada "Darül-irşad" adlı xanəgah açır və ona rəhbərlik etməyə başlayır, Səfəviyyə təriqətinin qurucusu, həm də başçısı kimi ömrünün sonunadək orada fəaliyyət göstərir. O, 1334-cü ildə Həcc ziyarətinə gedir, oradan qayıdandan 12 gün sonra Ərdəbildə vəfat edir. Onun "Səfəviyyə" adlanan bu təriqəti çox az bir vaxtda məşhurlaşır.

Yarandığı vaxtdan Şərqin ictimai-siyasi həyatında ciddi və mühüm təsirə malik olan "Səfəviyyə" təriqətinin qurucusu Şeyx Səfiəddin İshaq Ərdəbili (1252-1334) böyük sufi-mütəfəkkir olmaqla yanaşı, həm də bədii yaradıcılıqla məşğul olmuş, kifayət qədər gözəl şeir nümunələri yazmışdır. Bəzi araşdırmalarda Şeyx Səfiəddinin mükəmməl divanı olduğu bildirilir [9, s.32]. Lakin çox təəssüf ki, haqqında danışılan divan hələlik əldə edilməmişdir. Buna baxmayaraq, səfəvilərlə bağlı olan bir çox mənqibələrdə, habelə müəllif əsərlərində Şeyx Səfiəddinin şeirlərindən müəyyən nümunələr verilmişdir. Həmçinin cüng tərtib edənlər də öz cünglərinə Şeyx Səfiyə məxsus olan şeirləri daxil etmişlər [10, s.32].

Bu da həqiqətdir ki, bəzən cünglərdə Şeyx Səfiyə aid edilən şeirlərin hamısının ona məxsusluğu şübhə doğurur. Çünki Sultan Şeyx Səfiyə hörmət əlaməti olaraq bir çox şairlər "Səfi" adını özlərinə təxəllüs seçmişlər. Ona görə də Şeyx Səfinin divanı və şeirləri bu "Səfi"lərin şeirləri ilə qarışmış hala gəlmişdir [4, s.33].

Şeyx Səfiəddinin həyat və fəaliyyəti, irfani-fəlsəfi görüşləri daim diqqət mərkəzində olmuş, bu haqda çoxlu tarixi-mənqibəvi əsərlər yazılmışdır. "Səfəviyyə", səfəvilərin mənşə və siyasi mübarizə tarixini sufi-dini dünyagörüşlərini, həyat və məişət tərzini, bu dövrdə ədəbi-fəlsəfi fikrin yönümlərini və yüksəlişini ətraflı işıqlandıran bir sıra əsərlər mövcuddur [11, s.59].

Təriqət şeyxi olan Şeyx Səfiəddinin şeirlərinin böyük əksəriyyəti irfani-fəlsəfi məzmundadır. O, şeirlərini üç dildə; türk, fars və giləkcə yazmışdır.

Şeyx Səfiəddinin bədii yaradıcılığı, xüsusilə də şeir yazması ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bunlar arasında iranlı alim Əhməd Kəsrəvinin fikirləri xüsusi maraq doğurur. Əhməd Kəsrəvi, Şeyx Səfiəddinin türk dilində yazdığı şeirləri danmağa cəhd etmişdir. Təbii ki, bu, belə də olmalıdır. Çünkü Şeyx Səfiəddinin yaşadığı XIII-XIV əsrlərdə hər hansı bir irandilli dövrü üçün ədəbi dil kimi dəbdə olan fars dilini qoyub türkcə şeir yazmazdı. Bunu yaxşı başa düşən Ə.Kəsrəvi çox böyük ciddi-cəhdlə Şeyx Səfiəddinin türkcə olan şeirlərini şübhə altına almağa çalışmışdır. Kəsrəvi bu yanlış fikri belə əsaslandırır ki, "Şeyx Səfiəddinin yaşadığı vaxtda türk dilində şeir təzə yaranırdı və türkcə belə bir qəzəlin həmin dövrdə yazılması mümkünsüzdür" [12, s.26].

Bu fikir kifayət qədər mübahisə doğurur. Məlumdur ki, Şeyx Səfinin yaşadığı vaxtda Azərbaycan türkcəsində şeir heç də təzə yaranmırdı, əslində, həmin vaxtda məhz bu dildə kifayət qədər mü-

kəmməl şeir nümunələrinin mövcudluğu şübhə doğurmur. Belə ki, təxminən Şeyx Səfiəddinlə müasir olan Şeyx İzzəddin Həsənoğlu əksər şeirlərini azəri türkcəsində yazmışdır. Fuad Köprülünün Dövlətşah təzkirəsinə istinadən verdiyi məlumata görə, "Yəsəvi dərvişlərindən olan İ.Həsənoğlu yaşadığı dövrdə Azərbaycanda və Rumda öz türkcə şeirləri ilə böyük şöhrət qazanmışdır. Türkcə və farsca təsəvvüfi şeirlər yazmaqla tanınmış bu şairin, hər halda, təsəvvüf vadisindən ayılmadığı və şöhrət çevrəsinin genişliyinə görə heca vəzniylə, Yəsəvi tərzində ilahilər yazdığı təxmin edilə bilər" [13, s.178].

Bu şairin dövrümüzə qədər gəlib çatan azəri türkcəsindəki iki qəzəli istər forma və məzmun, istərsə də dil və üslub baxımından çox mükəmməldir. Təbii ki, belə mükəmməl şeir nümunələri müəyyən ənənəyə söykənmədən birdən-birə yarana bilməzdi. Bunu əsas tutaraq ehtimal etmək olar ki, Həsənoğludan da əvvəl Azərbaycan türkcəsində kifayət qədər şeir nümunələri olmuşdur

Əhməd Kəsrəvinin fikirlərinin əksinə, bu barədə Z.V.Toğanın fikirləri həqiqətə tamamilə uyğundur. Bu alimin fikrincə, "Səfvəttüs-səfa"nın h.942/m.1524-cü ilə türk dilinə edilən tərcüməsində Şeyx Səfiəddinin əsərləri kimi verilən türkcə şeirlərdən və hikmətli sözlərdən bəzilərinin ona məxsusluğu şübhə doğurmur" [14, s.356].

Müxtəlif ərazilərdə yaşayan çeşidli millətlərin nümayəndələri tərəfindən mürşidi-kamil kimi qəbul edilən və onlar tərəfindən həmişə "Piri-türk" adlandırılan Şeyx Səfiəddinin müridləri içərisində, təbii ki, türklər üstünlük təşkil etmişdir Öz milli mədəniyyətlərinə sıx bağlı olan və ana dilindən başqa dil bilməyən sadə türklərin daim əhatəsində olan Şeyx Səfiəddinin ana dilində şeir yazması kifayət qədər təbiidir. Məlumdur ki, Ə.Yəsəvidən başlayaraq bir çox türk sufiləri təsəvvüfi görüşlərini yaymaq üçün çox zaman poeziyanın imkanlarından geniş istifadə etmişlər. Şeyx Səfiəddinin də bu imkanlardan yararlanması heç şübhə doğurmur. Şeyx Səfiəddin türkcə şeirlərində bu dilin ifadə incəliklərindən ustalıqla yararlanmışdır. Onun ana dilində yazdığı şeirlərində konkretlik, aydınlıq, üslub sadəliyi, dil və ifadə gözəlliyi özünü bütünlüklə büruzə verir:

*Demin ki, dərdimi bilməz, bilir vallahi-billahi,*
*Desə bilməm, inanmın-aldaır vallahi-billahi,*

*Dedim, mənim könlüm səninlə mehriban olmaz,*
*Demə zalim, demə kafir olur vallahi-billahi.*

*Qıya baxqac, təbəssüm nazik etgəc iltifat eylə,*
*Məni axər bu zalım öldürür vallahi-billahi,*

*Səfini qoyma yalqız, getmə, getmə, gəl, gəl,*
*Yazıqdır, başına dönüm, ölür vallahi billahi.* [3, s.20]

Göründüyü kimi, Şeyx Səfiəddin bu şeirdə sözləri və söz birləşmələrini mümkün qədər saf türkcə verməyə çalışmışdır. Onun başqa şeirlərində də biz bunun şahidi oluruq:

*Ey rövnəqi-baharü çəmən, gülmüsən, nəsən?*
*Ey ixtiyarı əldən alan, bulmusan, nəsən?*

*Dövri yüzündə səbzeyi-xəttin görən deyər*
*Reyhanmısan, bənövşəvü-sünbülmüsən, nəsən?*

*Xoş cəngcu gəlür gözümə qaşu-kiprigün*
*Ey gözlərü hərami, qərovulmusan, nəsən?*

*Ey könlümün xərabəsi ahular oynağı,*
*Divanələr yatağı məgər çulmusan, nəsən* [15, s.65-66].

İranlı alim Baba Səfəri bu qəzəlin mükəmməliyi ilə bağlı xoş söz deməkdən çəkinməyərək "Türk dilini bilənlər bu qəzəlin nə qədər mükəmməl və ədibanə olduğunu müəyyən edərlər» – fikrini söyləmişdir [16, s.65-66].

Hacı Bayram Vəli yaradıcılığında dilinin sadəliyi, ifadə tərzinin aydınlığı baxımından Seyx Səfi Ərdəbilinin təsiri şeirlərində aydın görünür. Şairin təbii ki, söhbət Hacı Bayram Vəlinin türk dilində bizə gəlib çatan şeirlərindən gedir. Poeziyada fikrin gözəlliyinin oxuculara çatdırılmasında təkrirlərin xüsusi yeri var. Biz təkrirlərin yaratdığı gözəlliklərin Şeyx Səfi Ərdəbili və Hacı Bayram Vəlinin yaradıcılığında önəmli yer tutduğunu görürük.

**Şeyx Səfi:**

*Dedim kim dərdimi bilməz, bilir vallahi, billahi,*
*Desəm bilməm, inanmayın, aldadır vallahi, billahı.* [3, s.11]

**Hacı Bayram Vəli:**

*Bilmək istərsən səni, can içrə ara canı,*
*Keç canından bil onu, sən səni bil, sən səni.* [17, s.308, 309]

Öz dövründə mömin bir təsəvvüf əhli kimi tanınan Şeyx Səfiəddin Ərdəbili ana dilimizidə yaranan poeziyanın inkişafında böyük rol oynamışdır.

Şeyx Səfiəddin Ərdəbilinin yaradıcılığından bizə "Qara məcmuə" (şeirləri, sözləri, öyüdləri və mənqəbələri) adlanan kitabı gəlib çatmışdır. Kitab 2001-ci ildə Tehranda doktor Hüseyn Məhəmmədzadə Sədiqinin hazırlayıb nəşr etdirdiyi mətn əsasında İslam Qəribli tərəfindən 2004-cü ildə Bakıda çap olunub. Şairin yaradıcılığı zəngin və rəngarəngdir. Onun "Nəsən?" rədifli şeiri ilahi gözələ qovuşmağa can atan aşiqin sevgilisinə ünvanladığı ritorik sualıdır. Ritorik sual əsasında qurulan bu şeirdə aşiq sevdiyi gözəlin üzünü baharda bərq vüran işığa bənzədir. Bu gözəlliyi görənlər onun reyhan, yoxsa bənövşə olduğunu söyləyə bilmirlər. Aşiq sevgilisinin göz və kirpiklərinin heyranı olduğunu vəsf etməklə, o gözləri qapayan kirpikləri yol kəsən həramiyə bənzədir. Çünki o kirpiklər məşuqənin gözlərini görməkdən aşiqi məhrum edir. Sevgili üçün aşiqin xaraba qalmış könlü ahulər oynağıdır, çünki o, aşiqin könlünə biganədir, onun üçün sanki bir boşluq – səhra funksiyasını yerinə yetirir.

*Ey könlümün xərabəsi, ahulər oynağı,*
*Divanələr yatağı məgər çölmüsən, nəsən?*

Şair aşiqin sevgilisi yolunda ah-zar etməkdən bülbülə dönməsindən söz açaraq deyir:

*Əfqani-ahdur gecə-gündüz işin, Səfi,*
*Qumrumusan, bu bağidə, bülbülmüsən, nəsən?*

Şeirlərindən də görünür ki, Şeyx Səfi bir təriqət əhli olmaqla yanaşı, həm də bir hal əhli idi. Onun şeirlərində Allaha yaxınlaşmağın yolları, öz içində haqqı tapmağın məqamlarından söz açılır.

*Can qılanda cismi tərkin mərhəmi canan olar,*
*Quş yuvasından azanda həmdəmi şeytan olar.* [3, s.13]

Şair bu beytində ruhun insanın bədənini tərk etməsi və onun ilahi varlığa (cana) qovuşmasından söz açırsa, beytin ikinci misrasında yolunu azan insanın həmdəminin şeytan olmasını vurğulayır. Şeyx Səfiəddinin "Qara məcmuə"sində diqqəti çəkən şeirlərdən biri də "Mövzun-mövzun" rədifli şeiridir. Sadə, aydın, anlaşıqlı bir dildə yazılan şeir türk dilinin geniş imkanlara malik olduğunu göstərir. Bu şeirlər bir daha təsdiq edir ki, XIII əsrdə Asərbaycan-türk dili şeir-sənət dili olmuş, yuxarı təbəqələrin danışıq dili funksiyasını yerinə yetirmişdir.

Şairin gözəl lirik şeirləri var, bu şeirlər həm poetika, həm məzmun, həm də forma cəhətdən o dövr üçün xarakterik olmuşdur. Şeirlərinin birində şair deyir:

*Qoydu üz könlümə qəm ləşkəri hamun-hamun,*
*Qara baydağlı ələmlər ucu gülgün-gülgün.*
*Çağırırdım qatı avaz ilə: - Leyli-Leyli!*
*Dağ səs verdi cavabında ki: - Məcnun, Məcnun.*
*Gözlərimdən yana od tutladı duzəx-duzəx,*
*Cigərimdən yana qan qaynadı Ceyhun-Ceyhun,*
*Bu nə viranə könüldür, Səfi, ey vay, ey vay!*
*Sərvlər var idi bu bağidə mövzun-mövzun.* [3, s.14]

Şeir müasir oxucunun tam anlayacağı bir dildə yazılmış, şeirin sonundakı təkrarlar ona xüsusi bir ahəng vermiş, onda bir oynaqlıq, ritm yaratmışdır. Biz belə şeir nümunələrinə Qazi Bürhanəddin divanında rast gəlmişik. Şeirlərinin dili o qədər sağlam, axıcı və danışıq dilinə yaxındır ki, bu gün çağdaş şeirimizdə dil teorisinin hədəflərindən sayılan kütlə danışığına yaxınlıq mərtəbəsində hesab oluna bilər.

Şeyx Səfi yaradıcılığı haqqında danışan Y.Babayev yazır: "Qara məcmuə" xaraktercə elmi-fəlsəfi əsər olsa da, burada bədii ovqat daha güclüdür. Başqa sözlə, bu, Azərbaycan ədəbiyyatı tarixində elm və bədii təfəkkürün qovşaq təzahüründən ibarət mükəmməl elmi-bədii janr nümunələrindən biridir [18, s.8].

## Nəticə / *Conclusion*

Təsəvvüfi baxımdan eyni mənbədən yararlanan təriqət şairlərinin eyni qaynaqdan bəhrələnməsi onların yaradıcılığında özünü göstərməkdədir. Yaradıcılığından bizə çatan şeirlərinin dilinin sadəliyi, bədii ifadə vasitələrindən olan anafora və epiforadan istifadə o dövr şeir yaratmaq texnikasının əsas prinsiplərindən idi ki, bu istifadəyə hər iki şairin yaradıcılığında rast gəlmək mümkündür. Şeirdə söz və ifadələrin təkrar yaratmaq ənənəsi bu sənətkarları birləşdirən xüsusiyyət kimi göstərilə bilər.

Təsəvvüf terminlərinin formalaşmasında digər önəmli səbəblərdən biri də böyük sufi şairlər tərəfindən son dərəcə təsirli və güclü tərzdə tərənnüm edilən ilahi eşqin ədəbiyyatda özünə yer tapması ilə bağlıdır. Bu mövzudakı ədəbiyyatda ilahi həqiqətləri və təsəvvüfi halları istiarəli və məcazlı sözlərlə ifadə etmək vacib şərtlərdən olmuşdur.

## Ədəbiyyat / *References*


1. Gölpınarlı A. 100 Soruda Türkiyede Mezhepler və Tarikatler. Kum: Ensariyan Yayınevi, 1969.
2. Köprülü M.F. "Ahmet Yesevi" / İslam Ansiklopedisi, cilt I. İstanbul, 1941.
3. Şeyx Səfiəddin Ərdəbili. Qara məcmuə. Nəşrə hazırlayan: İslam Qəribli (Ön söz). Bakı: Elm, 2004.
4. Şeyx Səfi Təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr türkcə tərcüməsi. Tərtibçilər və nəşrə hazırlayanlar: Möhsün Nağısoy, Sevər Cabbarlı, Rauf Şeyxzamanlı. Bakı: Nurlan, 2006.
5. *اسکندر بیگ ترکمان. تاریخ عالم آراری عباسی، مؤلف مقدمه وگرد آورنده ایرج افشار، جلد اول، تهران: گلشن، 1350، 607 ص.*
6. *خواجه احمد یاسوی. دیوان حکمت. رسول اسماعیل زاده، کوناشییک کاری، فالیه کامبربکوا، تهران: الهدی، 2000، 185+184*
7. *شیخ حسین پسر ابدال پیرزاده زاهدی. سلسلة النسب الصفویه، برلین: ایرانشهر، 1343، 112 ص*
8. Abbaslı M. Safevilerin kökenine dair //TTK Basımevi, "Belleten", №158, Ankara: 1976.
9. Şeyx Səfiəddin Ərdəbili. Qara məcmuə, Tədvin edən dok. Hüseyn Düzgün, Tehran: Pəyam, 1380.

10. Qubadov Q. Qaynaqlar Şeyx Səfi poeziyası haqqında. AMEA-nın Xəbərləri // Humanitar Elmlər Seriyası, №2. Bakı, 2004.
11. Sadıqoğlu Ç. Azərbaycan təsəvvüfü tarixində "Səfəviyyə" və onun Xətai yaradıcılığında yeri //Ş.İ.Xətai (Məqalələr toplusu) Bakı, 1988.
12 احمد کسروی. آذری یا زبان باستان آذربایگان. تهران: شوروی، 1304، 52 ص.
13. Köprülü F. Türk Edebiyatı Tarihi, İstanbul: Şəfiq matbaası, 1986.
14. Togan Z.V. Sur l'origines des Safawides Melanges Louis Massignon, tome 3. Damascus, 1957.
15. تاریخ، جلد اول، تهران: بهمن، 1353، 501 ص. بابا صفوی. اردبیل در گذرگاه
16. بابا صفوی. اردبیل در گذرگاه تاریخ، جلد اول، تهران: بهمن، 1353، 501 ص..
17. Refik Turan, Fatma Turan, Abdulkerim Erdogan, Horasanı Anadoluya, Anadolunu Balkanlara bağlayan menevi önder Hacı Bayram Veli. Ankara, Böyükşehir Belediyyesi, 2011.
18. Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti. Bakı: Nurlan, 2007.

## О мифах и истинах, встречающихся в "Тезкире Шейха Сафи"

**Хураман Гумматова**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: hummatovax@mail.ru

**Резюме.** Тасаввуф как абстрактное понятие имел конкретное содержание и форму через секты. Начиная с XII века секты приобретали системную форму и обладали определенной структурой и программой. Эти системные действия отличали секты друг от друга, а также создавали между ними взаимные связи. Следовательно, быть поэтом мутасаввуф означало быть связанным с сектой или сектами, так как без секты нет тасаввуфа. Одной из таких сект была байрамийе. Большую роль в основании Байрамийе сыграли две секты. Одна из них – Сефавийе, основанная Шейхом Сефи Эрдебили, а другая – Халватийе, основанная Ибрагимом Захидом Гилани.

Книга XIV века Мухаммада ибн Беззаза Эрдебили "Сафватус-сафа" на фарсидском языке является источником информации о жизни и творчестве основателя секты сефеви Шейха Сефиеддина Эрдебили. Автор книги был учеником основателя секты. Мохаммад Хусейн Катиб Нишати перевел книгу на турецкий язык в 1543 году и назвал ее "Тезкире Шейха Сефи". В статье есть фрагменты рассказов, связанных с "Тезкире Шейха Сефи", Ибрагимом Захидом Гилани и Шейхом Сефиеддином.

**Ключевые слова:** Ибрагим Захид Гилани, Шейх Сефиеддин Эрдебили, секта Сефавийе, "Тезкире Шейха Сефи", течения, легенды